

Sumqayıt Dram Teatrının yeni təyin olunmuş direktoru Mübariz Həmidovla teatrın 50 illik yubileyi ərəfəsində görüşdük. İşi başından aşsa da, "Ekspress"ə müsahibə verməyə razılaşdı. Söhbətə də lap əvvəldən başladıq. Gördüyü, görəcəyi işlərdən danışdıq, planlarını, arzularını öyrəndik.

# “Səhnəyə çıxmaqdan başqa hər şeylə məşğulam...”

## Mübariz Həmidov: "Çalışıram ki, Sumqayıt Teatrının keçmiş şöhrətini qaytaram"

**- Mübariz müəllim, sizin teatr sahəsindəki fəaliyyətiniz çoxlarına məlumdur. Amma istərdim, söhbətə lap əvvəldən başlayaq. Bu gündən geriyə baxanda teatra, sənətə gəlişinizi necə xatırlayırsınız?**

- Bu sənətə sevgim orta məktəbin 8-9-cu sinfindən yaranıb. Mən Göyçayda 6 nömrəli məktəbdə təhsil almışam. Bir ixtisası şərqşünas olan Ağamirzə Vahidov adlı müəllim var idi. Amma bizə Azərbaycan dili və ədəbiyyatdan dərs deyirdi. Məndə istəyi o yaratdı. Ona bu gün də minnətdaram. Onu həmişə, bütün müsahibələrimdə, televiziya çıxışlarımda xatırlayıram. Son dövrlərdə nitqi itmişdi. Allah şəfa versin.

Beləcə, onuncu sinfi bitirəndə hamı bilirdi ki, sənədlərimi İncəsənət İnstitutuna verəcəyəm...

**- İnstitutda hansı sənətkarlardan dərs almısınız?**

- Orta məktəbi bitirib Mirzağa Əliyev adına İncəsənət İnstitutuna sənəd verdim və qəbul oldum. Onda biz dərk eləmirdik ki, bizdən imtahan götürənlər kimlərdir. Kimlər idi onlar? Ədil İsgəndərov, Mehdi Məmmədov, Rza Təhmasib, Tofiq Kazımov və s. Onlar Azərbaycan teatr sənətinin müqtədir sənətkarları idi. Xoşbəxtlikdən mən Ədil İsgəndərovun kursuna düşdüm. Birinci kursun bir neçə ayından sonra dərk elədik ki, biz necə titanlardan dərs alırıq. Kurs tamaşalarını, parçalar hazırlayıb təqdim edəndə, adını çəkdiyim o böyük sənətkarların hamısı dərsdə otururdu. İki il Ədil müəllimin kursunda dərs aldıq. Ədil müəllim dünyasını dəyişdi, bizi Elmira Şabanovaya verdilər. Ədil müəllim o iki ildə 24 il Akademik Dram Teatrının bədii rəhbər olmasından, hazırladığı monumental tamaşalardan, o tamaşaların hazırlıq prosesindən, aktyorlardan danışırdı... "Vaqif" dramının yaranmasından danışırdı. Deyirdi, "böyük şairimiz Səməd Vurğun "Vaqif"i ilkin variantda poema kimi yazmışdı. Bir gün belə qərara gəldik ki, "Vaqif"i dram halına sala, biz də tamaşasını hazırlayaq. Təbii ki, müəllif, rejissor işbirliyi başlandı. Mən poemanı bir rejissor kimi oxuyurdum, müəyyən səhnələri yazıda ixtisar məqsədi ilə xətləyirdim. Deyirdim ki, Səməd qağa, bunları təzədən işləmək lazımdı. O boyda nəhəng şair çox rahatlıqla razılaşırdı. Üç aya qədər o əsərin üzərində işlədik...".

Biz tələbə olarkən "Vaqif" dramının 1000-ci tamaşasına baxdıq. Azərbaycanda ən uzunömürlü tamaşalardan biri məhz Ədil müəllimin hazırladığı "Vaqif" dramıdı.

O, Moskvada oxumağından, Lunaçarski adına teatrı bitirib gəlməyindən, Akademik Dram Teatrında oynanılan diplom tamaşasından -"Polad qartal"ın hazırlanmasından danışırdı...

İnsan kimi əvəzi yox idi. Belə baxanda, zəhmli təsir bağışlayırdı. Amma 3-5 dəqiqə söhbət edəndə görürdün ki, kənardan adamı vahimələndirən üz cizgilərə, qəribə baxışı yoxa çıxdı. O qədər səmimi idi, elə bilirdin, 20-30 ildi tanıyırsan. Xüsusən, tələbələrə diqqətlə, qayğı ilə yanaşırdı. Çalışırdı ki, bizə aktyor, rejissor sənəti ilə bağlı hər şeyi öyrətsin. Mən özümü xoşbəxt sayıram ki, elə bir dahi sənətkardan dərs almışam. Çox əfsus ki, dünyasını tez dəyişdi. Bu gün də onun yeri görünür. Bizə çoxsaylı tövsiyələr verirdi. Mənə deyirdi ki, "qada, sən özünü televiziyadan qoru. Televiziya adamı tez şöhrətləndirir, tez tanıdır, tez də yaddan çıxa bilərsən. Sənin də gözlərin donbadı, qızlar zəng edərlər, yolunu azarsan...".

**- Siz də teatrı seçdiniz. İnstitutu bitirib, sonradan uzun illər rəhbərlik edəcəyiniz Gənc Tamaşaçılar Teatrında işə başladınız...**

- Bəli, diplomumu alandan sonra Gənc Tamaşaçılar Teatrına gəldim. Orda Elçinin eyniadlı əsəri əsasında hazırlanmış "Mahmud və Məryəm" tamaşasında Sofi Ləleni, "Ölüm hökmü"ndə məktəb direktoru Ələsgəri, Əli Əmirlinin eyniadlı əsəri əsasında hazırlanmış "Arvad olmaq istəmirəm" tamaşasında Qədiri, "Toxmaq Əhməd" tamaşasında Toxmaq Əhmədi, Əhməd Orucoğlunun eyniadlı əsəri əsasında hazırlanmış "Pul dəlisi"ndə Qulamı və bir çox uşaq tamaşalarında oynamışam...

**- Bəs aktyorluqdan birdən-birə qopmağınız çətin olmadı?**

- İl yarım Almaniya Demokratik Respublikasında hərbi xidmətdə oldum. Sonradan gəlib yenə teatrda fəaliyyətimi 2000-ci ilə qədər davam etdirdim. O zaman mənə Mədəniyyət Nazirliyinin İncəsənət Şöbəsinin teatr bölümünə dəvət gəldi. Onda o şöbənin müdiri hazırda Musiqili Teatrın direktoru olan Əliqismət Lalayev idi. Biz tələbə yoldaşı olmuşuq. O mənə dedi ki, istəyirəm, sən burda çalışasan. Dedim ki, özümü burda görmürəm, həm də teatrsız qala bilmirəm. Dedi ki, yenə teatrla əlaqəli olacaqsan. Dedim, özüm tamaşada oynamaq istəyirəm. Dedi, 20 il oynamısan, bəsindi. Mən ora gedənə qədər teatrda 20 il işləmişdim. 2000-ci ildə əməkdar artist adına layiq görülmüşdüm. Nə isə, Əliqismət müəllim dedi ki, vərdiş edəcəksən. O vaxt Ədalət Vəliyev nazir müavini idi. Onunla da söhbət etdim. O da dedi ki, səni burda görürəm. İlk bir neçə ay özümü narahat hiss edirdim. Amma 6 ilə qədər orda çalışdım. Orda işləyəndə mən Heydər Əliyev Sarayında keçirilən tədbirlərin redaktoru, ssenari müəllifi, koordinatoru olurdum. Müxtəlif xarici ölkələrə teatr truppalarını aparırdım.

**- Yeri gəlmişkən, "əməkdar artist" almağınızdan xeyli vaxt keçir. "Xalq artisti"nin vaxtı deyil?**

- Xidmətimə görə bəlkə də bu yaşda mən xalq artisti adına layiq görülə bilərəm. Amma bu tərəfdən düşünürəm ki, mənim hazırda səhnə fəaliyyətim yoxdur. Düzdür, mən teatrın təşkili, inkişafı ilə məşğulam. Səhnəyə çıxmaqdan başqa hər şeylə məşğulam. Bir dənə səhnəyə çıxıb rol ifa eləmirəm. Fikirləşirəm ki, bəlkə buna görə xalq artisti adına layiq görülməyə ehtiyac yoxdu. 2014-cü ildə Məni Kalmıkiya Respublikasının əməkdar incəsənət xadimi fəxri adına layiq gördülər. Başqa ölkənin fəxri adını almaq teatr sahəsində ilk idi.

**- Altmış iki yaşınız tamam oldu. Bu yaşda özünüzü necə hiss edirsiniz?**

- İlk dəfə mənimlə rastlaşanlar, söhbət edənlər mənə o yaşı vermirlər. Özümü 60-62 yaşında hiss eləmirəm. Elə hesab edirəm ki, ruhum gəncdi, cavandı. Həyatımın 33 ilini gənc tamaşaçılar teatrına bağlamışam: 20 il aktyor kimi, 13 il rəhbər kimi. Bəlkə də daha çox gənclərlə çalışdığıma görədir. Bədən quruluşum da mənə imkan verir ki, özümü o yaşda hiss eləməyim. Düzdür, fizolji olaraq yaş üstə yaş gəlir, saç ağarır, üz qırışır. Amma elə hiss edirəm ki, 70-80-ci illərdə teatrda işlədiyim dövrdü. Eyni əşqdi. Eyni həvəs qalıb teatra, sənətə. Çalışıram daha maraqlı tamaşalar hazırlayaq. Azərbaycan teatrını daha çox ölkələrdə tanıdaq, təbliğ edək. Bu, böyük missiyadır.

**- Missiya demiş, bu yaxınlarda Gənc Tamaşaçılar Teatrının direktoru vəzifəsindən kənarlaşdırıldınız. Sizcə, oradakı missiyanız, işiniz artıq bitmiş hesab olundu?**

- Orada iş bitməyib. Orada 2008-ci ildə 3 teatr birləşdi. Gənc Tamaşaçılar Teatrı, Bakı Kamera Teatrı, bir də Dövlət Gənclər Teatrı. Bu, birmənalı qarşılanmadı, həm kollektivdə, həm də ətrafda. Amma cənab nazirimizin çox düzgün əmri idi. Təbii ki, ölkə başçısı ilə razılaşdırılmış addım idi. O iki teatrın nə binası var idi, nə də maddi-texniki bazası. Bizim binada isə əsaslı təmirdən sonra bütün şərait yarandı. Bu iki teatr da birləşəndən sonra da tamamilə şəraiti olan gözəl teatr əldə olundu. Truppa birləşdi, qaynadı-qarışdı. Düzdür, ilk aylar müəyyən söz-söhbət oldu. Amma mən həmişə deyirdim ki, biz hamımız eyni şineldən çıxmışıq. Burda çalışan bütün aktyorlar, digər işçilər İncəsənət İnstitutunun tələbələriyik. Bizim çoxumuzun müəllimi eyni olub, eyni adamlardan dərs almışıq. Hamı da hamını tanıyır. Niyə biz bir-birimizi didməliyik? Bu, dövlətin verdiyi qərardır, bu qərara hörmətlə yanaşmalıyıq. Yanaşdıq da. Nəticə bu oldu ki, gözəl bir truppa, gözəl bir fəaliyyət növü yarandı. İnanın, bəzən elə olurdu ki, bir ayda dörd səfərə, xarici ölkələrə gedirdik. Bir neçə xarici ölkə teatrları ilə müqavilələr imzalandı. O müqavilələr işə düşməyə başladı. Ölkə başçımızın "2009-2019-cu illər üçün Azərbaycan teatrının inkişafına dair" Dövlət Proqramı var. Bu proqramın bəndlərinin birində Azərbaycan teatrının dünyaya inteqrasiya olunması, Azərbaycan teatrına ayrı-ayrı teatr mütəxəssislərinin dəvət olunması var. Biz də bunun icrası ilə məşğul olmağa başladıq. Effektli də nəticələr aldıq. Kalmıkiya ilə beş il əməkdaşlıq elədik. İkinci ili bizi fəxri ada layiq gördülər- əvvəl iki nəfəri, dördüncü ili daha iki nəfəri. Onlar da bura gələrkən biz də onları Mədəniyyət və Turizm Nazirliyinin "Fəxri mədəniyyət işçisi" döş nişanı ilə təltif elədik. Hesab edirəm ki, bu, onların əməkdar artisti statusuna bərabər nişandı.

Amma deməzdim ki, orda işlər yekunlaşdı. Teatr elə bir yaradıcılıq müəssisəsidir ki, orda daim axtarışda olmalısan. XXI əsrdə mütləq maraqlanmalısan ki, dünya teatr prosesində nələr baş verir. Biz düz yollamı gedirik, bəlkə elə öz qazanımızda qaynayırıq. Həmişə tərəfdarı olmuşam ki, hazırladığımız tamaşanı xarici həmkarlarımıza göstərməliyik. Onların tamaşalarını mütləq gətirməliyik, baxmalıyıq...

**- Hazırda Sumqayıt Teatrına rəhbərlik edirsiniz? Demək olarmı ki, yarım qalan arzularınızı burada həyata keçirəcəksiniz?**

- Müəyyən layihələr var ki, mən onları burada reallaşdırmaq fikrindəyəm. Sumqayıt Teatrının çox möhtəşəm tarixi, keçmişi olub. İlk tamaşa "Müsyo Jordan və Dərviş Məstəli şah" Cənnət Səlimovanın quruluşunda olub. 1970-ci ildə Ağakişi Kazımov Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərinə quruluş verib. Sonrakı illərdə Mərahim Fərzəlibəyovun "Poladəridənlər" tamaşası olub. Daha sonrakı illərdə Nəriman Həsənzadənin "Qoy bütün Şərq bilsin" əsəri tamaşaya qoyulub. Bizim böyük sənətkarımız Məlik Dadaşov gəlib bu tamaşada oynayıb. Bunlar hamısı Azərbaycan teatrında hadisəyə çevrilmiş tamaşalardı. Bu teatrda xalq artistləri, müqtədir sənətkarlar -Rza Əfqanlı, Barat Şəkinskaya, Əliağa Ağayev, Məlik Dadaşov, Afaq Bəşirqızı, Valeh Kərimov, Mərahim Fərzəlibəyov, Əjdər Həmidov, Sabir Məmmədov, Ramiz Novruzov, Almaz Amanova, Kazım Abdullayev və bir çoxları çalışıblar. Bir növ Sumqayıt teatrı şəhər teatrlarının bazası olub. Mən çalışıram ki, Sumqayıt teatrının keçmiş şöhrətini qaytaram. Yeni gənclər cəlb eləyək teatra. Bu məqsədlə sentyabrın 15-də müsabiqə elan eləmişik. Sumqayıtın orta məktəblərində təhsil alan, bu sənətə marağı olan gəncləri, bizim universitetin Sumqayıtda yaşayan tələbələrini, məzunlarını cəlb edək, tamaşalarda onlardan istifadə eləyək. Azərbaycanda dramaturqlar, səhnə əsəri yazanlar yox dərəcəsindədi. Cəmi bir neçə nəfərdi. Onların da ən məhsuldar işləyənləri Elçindi, Əli Əmirlidi. Üçüncü... Fikirləşirəm ki, yeni nəsil gəlməlidi. Üç il qabaq Nizami adına Ədəbiyyat İnstitutu ilə "Anamın kitabı" adlı pyes müsabiqəsi elan elədik. Ekspertlər Şurası təqdim olunan 100 əsərdən 10-nu seçdi. O əsərləri biz münsiflərə verdilər, oxuduq. Onda mən toplantıda dedim ki, bu 10 əsərdən hansı birinci yerə çıxarsa, onu Gənc Tamaşaçılar Teatrında səhnəyə qoyacağıq. Gənc bir qızın Xocalı faciəsindən bəhs edən əsəri birinci yerə çıxdı, biz də o əsəri tamaşaya qoyduq. İndi burda da yazarlar üçün müsabiqə elan etmişik. İlkin olaraq istərdim ki, bizə daramaturqlar, yazarlar müraciət etsinlər. Bu barədə artıq Əli Əmirli ilə söhbətim olub. Sumqayıtın yaranma tarixi, Sumqayıtın adı ilə bağlı əfsanələr də var. Sumqayıtın yaranması, dünəni, bu günü haqqında mükəmməl bir səhnə əsərinin bizə təqdim olunmasını istərdim. Əli Əmirli ilə fikirlərimi bölüşdüm. O dedi ki, materiallarla tanış olub, ola bilsin ki, avqust ayında bu mövzunu işlədi. Sumqayıt günügündən abadlaşır. İstərdim bunu biz də səhnədə göstərək.

(davamı səh. 13-də)

(əvvəli səh. 9-da)

**- Bəs yeniliklər kollektivin maddi durumunda necə əks olunacaq? Bu yöndə bir fikriniz var?**

- Düşünürəm ki, maaşlar artacaq. Sumqayıt Teatrının 50 illik yubileyi çərçivəsində bu məsələyə də toxunmuşuq. Mən təklif vermişəm. Hesab edirəm ki, teatrın kateqoriyasının qaldırılmasına baxılacaq. Artıq baxılmalıdır. Çünki uzun müddətdir, bu teatr 2-ci kateqoriya ilə fəaliyyət göstərir. Elə fikirləşirəm, ya 1-ci dərəcə, ya da "aparıcı teatr" statusu veriləcək. Bu isə o deməkdir ki, teatrda çalışanların əməkhaqları 25 faiz qalxacaq. Fəxri adları hamıya vermək mükün deyil. Bunu onların əmək fəaliyyətinə, oyanadıqları rollara, yaddaqalan obrazlara görə verirlər. Ola bilər ki, biri 40 ildir işləyir, amma bir dənə yaddaqalan obrazı olmayıb. Amma adam var ki, beş ildir işləyir, dalbadal 3 obraz yaradıb, hamının yadında qalıb, respublika və yaxud şəhər miqyasında bir teatr hadisəsinə çevrilib. Niyə bu qiymətləndirilməsin?

**- Son vaxtlar bəzi teatrlarda qalmaqallar yaşandı. Təzə müdir gələndə də kollektivdə narahatlıqlar, dedi-qodular olur. Sizdə problem yoxdur ki?**

- Mən teatrda belə qalmaqalların olmasını yaxşı qarşılamıram. Həmişə istəmişəm ki, çalışdığım teatrda belə hallara yol verilməsin. Elə bir xüsusi resept yoxdur. Sadəcə, hər kəslə öz dilində danışmaq lazımdır. Aktyorlar kövrək olurlar, həssas olurlar. Ona görə də, onları qırmaq lazım deyil. Onları dinləmək, başa düşmək, mütəmadi ünsiyyətdə olmaq lazımdır. Aktyor hiss edəndə ki rəhbər onu dinləyir, onunla hesablaşır, onda daha səmimi olur. Əgər səhv bir addım atıbsa da, onu ona deyəndə başa düşür, dərk eləyir. Kollektivdə sağlam ab-hava yaratmaq üçün hər kəs öz işi ilə məşğul olmalıdır. Rəhbər hər kəsi işlə təmin eləməlidi. Söz-söhbət, dedi-qodu bekarçılıqdan yaranır.

**- Siz həm də ASSİTEJ -Azərbaycan Milli Mərkəzinin prezidentisiniz. Bu vəzifəni nə vaxta kimi davam etdirəcəksiniz?**

# "Səhnəyə çıxmaqdan başqa hər şeylə məşğulam..."

- 2011-ci ildə Bakıda teatrlar beynəlxalq qrumlara üzv oldu. O cümlədən də Gənc Tamaşaçılar Teatrı sənədləri ASSİTEJ-ə göndərdi. Fransada qurultayda biz beynəlxalq quruma həqiqi üzv seçildik. Mən Gənc Tamaşaçılar Teatrının direktoru olduğuma görə və o Milli Mərkəz bizdə yarandığına görə onlar tərəfindən bu mərkəzin prezidenti seçildim. Bizim baş prezidentimiz İvetta Hardi Cənubi Afrikada yaşayır. Bu qurumun 114 üzvü var. Biz ora üzv olanda 82-ci ölkə idik. Belə qurumlara üzv olanda dünya teatrında baş verənlərdən hali olursan. Yəqin ki, Gənc Tamaşaçılar Teatrının yeni direktoru Naidə İsmayılzadə avtomatik bu qurumun prezidenti seçiləcək. Amma bir həmkar kimi, lazım olanda biz də onlarla əməkdaşlıq edəcəyik. O qurumda məni tanıyırlar. İvetta Hardi Azərbaycanda beş dəfə mənim qonağım olub. Mən onu bütün teatrları gəzdirmişəm. Əgər o, noyabrda keçiriləcək beynəlxalq teatr konfransına Bakıya gələrsə, mütləq onu Sumqayıt Teatrına gətirəcəm.

**- Dəfələrlə beynəlxalq teatr festivallarının iştirakçısı olmusunuz. Azərbaycan teatrı xaricdə necə qarşılanır?**

- Beynəlxalq müstəviyə çıxanda mütləq apardığın tamaşanı götür-qoy eləməlisən. Müəllifindən, ifasından, rejissor işinə qədər. Nə gəldi, aparmaq olmaz. Mən bu məsələdə həmişə çox ciddi olmuşam. Çünki özümü yaxşı tamaşaçı hesab edirəm. Lazım olanda özümü münsiflər heyətinin də yerinə qoyuram. Sən festivala şit bir komediyanı apar, təbii ki, baxılmayacaq. O komediya bizdə bir qrup adamı qane edə bilər, zövqünü oxşaya bilər. Beynəlxaq arenaya çıxırsansa, elə bir qlobal mövzunu əhatə edən tamaşa seçməlisən ki, o ölkənin tamaşaçılarına da maraqlı olsun, o mövzu onları da narahat eləsin. Biz indiyə qədər hansı tamaşa ilə beynəlxalq festivala qatılmışıqsa, hələ elə bir narazılıq görməmişəm. Elə tamaşamız olub ki, Qran-Pri alıb. Elə tamaşa olub, 1-ci yer tutub.



**- Müəllif çatışmazlığından danışdınız. Bəs rejissura sahəsində vəziyyət necədir? Yeni rejissorlarla işləyəcəksinizmi?**

- Dramaturgiya ilə müqayisədə katastrofik vəziyyət deyil. Bizim kifayət qədər yerli rejissorlarımız var. Mənim tanıdığım və inandığım rejissorlar var. Onlarla işləyəcəyik. İstənilən ölkədən rejissor dəvət eləmək mümkündür və lazımdır. Bizdə uşaq tamaşaları da nəzərdə tutulub. Böyüklər üçün artıq danışılıb. Vladiqafqaz Akademik Milli Dram Teatrının bədii rəhbəri, Alaniya Respublikasının xalq artisti Vladislav Kaliyevi dəvət edəcəm. Ona bir tamaşa verəcəyəm bizim teatrda hazırlasın. Oktyabrın sonu teatrın yubileyini edəndən sonra bizim ora qastrol səfərimiz razılaşdırılıb.

Sumqayıta əyalət demək olmaz. Sumqayıt o qədər dəyişib, o qədər gözəlləşib ki, burda çalışıb etimadı doğrultmaq lazımdı. Düzgün iş planı qurmalıyıq. Bu teatr 70-80-ci illərdə olduğu kimi qaynamalıdı. Gecə-gündüz burda iş getməlidi. Bura teatr truppaları gəlməlidi. Bu teatr başqa ölkələrə getməlidi. Hazırladığımız tamaşanı orda nümüyiş etdirməlidir. Qayda-qanun, nizam-intizam teatrda bərpa olunmalıdı. Bu teatrda hər kəs öz işi ilə məşğul olmalıdı. Qapıçıdan tutmuş, bütün işçilərin geyimləri olmalıdı. Hiss olunmalıdı ki, bura teatrdı. Qonaqlar gələndə teatr işçisi ilə tamaşaçını ayıra bilməlidi. Dünyanın hər yerində bu belədir.

Biz insanlara bədii əsərlər təqdim eləməklə bərabər onları mədəniyyətə səsləyirik. Bura məktəblilər gəlir. Biz onlara örnək olmalıyıq. Vətənpərvərlik, vətəni sevmək, dostluğa sədaqət, ata-anaya məhəbbət ideyalarını aşılamalıyıq. Bizim əsərlərin əsas mövzusu da budur. Şit komediyalarla kimi, nəyi tərbiyələndiririk?

**- Hansı arzularla yaşayırsınız?**

- Ən böyük arzum aydın səmadı. İtirilmiş torpaqlarımızın qayıtmasıdı. Ölkəmizin coğrafiyasının genişlənməsidi. Niyə biz Ağdama, Şuşaya, Kəlbəcərə qastrola getməyək? Sumqayıt Teatrı da zamanında rayonlarda olub, hansı ki, biz bu gün ora gedə bilmirik. İşğal altında olan rayonlar alınsın, abadlaşsın, onların teatr binaları yenidən qurulsun, nəinki biz, bütün teatrlar o bölgələrdə səfərdə olsunlar.

**- Hobbiniz nədir?**

- Mənim hobbim uşaqlıqda velosiped sürmək olub. Bir az keçəndən sonra kitab oxumaq olub. İndi mən kitab oxumaqla bərabər, samovar qaynatmağı xoşlayıram. Yayda məqam gözləyirəm ki, qonaq gəlsin, samovarı qaynadım, ona özüm çay süzüm. Bir yerdə oturub özünə qapanmağı xoşlamıram. İstəyirəm gəzim, nəsə bir iş görüm. Ev şəraitində bir şey qırılıbsa, onu düzəldim. Passiv həyat tərzi xoşlamıram. İstəyirəm qurum, yaradım.

Orta məktəb və institut illərində Azərbaycan yazıçılarının yeni çıxan bütün əsərlərini oxumuşam. İndi yeni yazarlar var. Çoxusunun adını da bilmirəm. Mən Gənc Tamaşaçılar Teatrının direktoru işləyərkən Kamal Abdullanın yaradıcılıq fondunun üzvü olan gənclər kitab təqdimatı və imza günü keçirirdilər. Mən də təmənnasız ya teatrın qarşısında, ya da soyuq aylarda içəridə birinci mərtəbədə foyedə iki-üç saat onlara yer ayırırdım. Sonda uşaqlar o kitablara avtoqraf yazıb mənə də bağışlayırdılar. Son aylar bax o cür 3-4 yeni yazarın kitabını oxumuşam. Həmçinin, bədii şuranın sədriyəm, pyeslər də oxuyuram. Vaxtım, zamanım olduqca mütaliə ilə məşğul oluram.

**- Televiziyaya da baxa bilirsiniz?**

- Aparıcıları nəzərdə tutub deyiriksə, Azərbaycan Televiziyası ilə İctimai Televiziyaya üstünlük verirəm. Bir də ATV-də bir neçə xəbər aparıcılarını bəyənirəm. Digər aparıcıların nə tələffüzü, nə nitqi, nə də dünyagörüşləri istənilən səviyyədə deyil. "Xəzər" televiziyasının xəbərlərinə də baxıram. Digər kanallarda teatrlara o qədər diqqət yoxdur. O kanallar daha çox şouya meyillidirlər. Yəqin reytinq xatirinə.

**- Musiqi zövqünüz necədir?**

- Dünya musiqisindən üzü bu yana, muğamlarımıza qədər dinləyirəm. Mən orta məktəbdə oxuyanda musiqi məktəbinin tar sinfini bitirmişəm. Lap gənc vaxtı, tələbəlik illərində muğama o qədər meylli deyildim. Amma 15-20 il olar ki, yaxşı muğam oxuyanları böyük məmnuniyyətlə dinləyirəm. Mən muğama Alim Qasımovun ifasında vurulmuşam. Ona qulaq asandan sonra elə bil muğamı dərk eləməyə başladım. İndi muğam müsabiqələrində xeyli yaxşı ifaçılar çıxır. Düzgün olaraq da Opera Teatrına istiqamətləndirilirlər. Artıq bizim səhnəmizdə yeni leylilər, yeni məcnunlar var.

**- Siyasətlə də maraqlanırsınız?**

- Qoy siyasətlə siyasətçilər məşğul olsun. Mən hazırda ikinci çağırış Səbail bələdiyyəsinin üzvüyəm. Mədəniyyət, elm, gənclər və idman Komissiyasının da sədriyəm. Etiraf edim ki, vaxt qıtlığı, səfərlərlə bağlı onların iclaslarında çox iştirak edə bilmirəm...

Namiq MƏMMƏDLİ

Səhifəni Güler hazırladı